# *RATİBƏ SÜNNƏTLƏR*

# *Bismilləhir-Rahmənir-Rahim*

Həmd yalnız aləmlərin Rəbbi olan Allahadır. Salat və salam olsun özündən sonra heç bir Peyğəmbər gəlməyəcək olan Peyğəmbərimiz Abdullah oğlu Muhamməda, ailəsinə, səhabələrinə və qiyamətəcən Onun ardınca gözəl şəkildə gedənlərə.

Nöqsansız olan Allahın qullarına olan hikmət və rəhmətindəndir ki, onlara tətavvu (sünnət) ibadətlərini ehsan etmişdir.

Hər bir vacib ibadətin öz növündən tətavvu ibadətlər qoymuşdur ki, həmin vacib ibadətlərdə baş verən nöqsanları doldursun və bərpa etsin. Namazlarda olan ən üstün tatavvu ratibə sünnətlərdir. Həmçinin nəzərə alaraq ki, Allahın elçisi ***-Allahın salamı ona və ailəsinə olsun-*** səfərdə olmadığı müddətdə ratibə sünnətlərini heç vaxt tərk etməz, həmçinin fərz namazlarının təkrarlanması ilə hər dəfə təkrarlanan olduğu üçün istədim ki, ratibə sünnətlərinin bəzi əhakamlarını müxtəsər şəkildə bəyan edim:

## *Ratibə sünnətlərinin fəziləti:*

Ratibə sünnətlərinin fəziləti barədə ümumi olaraq Ummu Həbibənin ***-Allah ondan razı olsun-*** Allahın Elçisindən ***-Allahın salamı ona və ailəsinə olsun -*** rəvayət etdiyi hədisdir. O, belə buyurur: Allahın Elçisinin ***-Allahın salamı ona və ailəsinə olsun-*** belə dediyini eşitdim: “Kim bir gün və gecə ərzində on iki rükət namaz qılarsa onun üçün o namazlara görə Cənnətdə ev tikilər” Ummu Həbibə ***-Allah ondan razı olsun-*** deyir ki, mən bu hədisi Allahın Elçisindən ***-Allahın salamı ona və ailəsinə olsun-*** eşitdiyim andan bəri o sünnətləri tərk etmədim.

Ənbəsə belə deyir: “Mən bu hədisi Ummu Həbibədən eşitdikdən sonra ratibə sünnətlərini tərk etmədim”.

Amr ibn Ovs belə deyir: “Mən bu hədisi Ənbəsədən eşitdikdən sonra o ratibə sünnətlərini tərk etmədim.”

Noman ibn Səlim belə deyir: “Mən bu hədisi Amr ibn Ovs dan eşitdikdən sonra bu sünnətləri tərk etmədim. ***(Muslim / 728)***

Fəcr namazının ratibəsinin fəziləti haqda Aişə anamızdan ***-Allah ondan razı olsun-*** gələn hədisdə Allahın Elçisi ***-Allahın salamı ona və ailəsinə olsun -*** belə buyurur: “Fəcrin iki rükəti dünya və içindəkiklərdən daha xeyirlidir.”

Başqa rəvayətdə isə: “O iki rükət Mənə bütün dünyadan daha sevimlidir” deyə buyurmuşdur. ***(Muslim / 725).***

Fəcrin iki rükəti ratibə sünnətlər içərisində ən təkidlisidir.

Allahın Elçisi ***-Allahın salamı ona və ailəsinə olsun-*** heç bir zaman o sünnətləri tərk etməzdi. *(həm səfərdə həmdə səfərdə olmadığı vaxt o iki rükəti qılardı).*

Zöhr namazının ratibəsinin fəziləti haqda Ummu Həbibə ***-Allah ondan razı olsun-*** deyir ki, Allahın Elçisinin ***-Allahın salamı ona və ailəsinə olsun-*** belə dediyini eşitdim: “Kim daimi olaraq zöhrdən əvvəl dörd zöhürdən sonra da dörd rükətin üzərində mühafizəkar olarsa Allah oda onu haram edər” ***(Əhməd 6/325)***

## *Ratibə sünnətlərinin sayı:*

Ummu Həbibənin ***-Allah ondan razı olsun-*** rəvayət etdiyi hədis ratibə sünnətlərinin on iki olduğuna dəlalət edir. Tirmizi və Nəsai ***-Allah onlara rəhmət etsin-*** bu on iki rükəti izah edərək Aişə anamızdan ***-Allah ondan razı olsun-*** rəvayət olunan hədisdə Alahın Elçisinin ***-Allahın salamı ona və ailəsinə olsun-*** belə

buyurduğunu deyir: “Kim sünnətlərdən on iki rükət üzərində mühafizəkar olarsa Allah onun üçün Cənnətdə ev tikər, dörd rükət zöhrdən əvvəl və iki rükər sonra, iki rükət məğribdən sonra, iki rükət işadan sonra və iki rükət fəcirdən öncə”. **(*Tirmizi /414 , Nəsai /1794*)**

## ***Fəcrin ratibəsində oxunan surələr:***

Əbu Hureyrə ***-Allah ondan razı olsun-*** belə buyurur: Allahın Elçisi ***–Allahn salamı ona və ailəsinə olsun-*** fəcrin sünnətində: De: “Ey kafirlər!” və “De: “O Allah təkdir!” surələrini oxuyardı (yəni: "Kəfirun və İxlas"). **(Muslim /726)**

Səid ibn Yəsar İbn Abbasın ***-Allah ondan və atasından razı olsun-*** ona belə xəbər verdiyini nəql edir ki, : Allahın Elçisi ***-Allahın salamı ona və ailəsinə olsun-*** fəcrin iki rükətində: Deyin: “Biz Allaha və bizə nazil olana iman gətirdik” **(əl-Bəqərə /136)**

İkinci rükətində isə, “Biz Allaha iman gətirdik. Səndə şahid ol ki, biz müsəlmanlarıq.” (Ali-İmran /52) ayəsini oxuyardı. **(Muslim /727).**

## ***Məğribin ratibəsinsində oxunan surələr:***

İbn Məsud ***-Allah ondan razı olsun-*** belə deyir: “Neçə dəfə eşitdiyimi deyə bilmərəm amma Allah Rəsulu çox vaxt məğribdən sonra qıldığı iki rükət namazda “De: “Ey kafirlər!” və “De: “O Allah təkdir!” surələrini oxuyardı (yəni: "Kəfirun və İxlas"). **(Tirmizi /431/Albani hədisə səhihdir demişdir/ İbn Məca /1166).**

## *Zöhrdən öncəki dörd rükəti bir salamla yoxsa iki salamlamı qılınmalıdır:*

Şeyx Muhəmməd ibn Useymin ***-Allah ona rəhmət etsin-*** belə deyir: “Dörd rükətli nafilə sünnətini insan iki salamla bölməlidir dörd rükəti bir salamla bitirməməlidir. Çünki, Allahın Elçsi ***-Allahın salamı ona və ailəsinə olsun-*** belə buyurur: ”Gecə və gündüz namazları iki-ikidir**”** **(*Muhəmməd ibn Saleh əl-Useyminin fətvalar toplusu 14/288).***

## *Əsr namazının ratibə sünnəti varmı?*

Şeyx Muhəmməd ibn Useymin ***-Allah ona rəhmət etsin-*** belə deyir: “Əsr namazının nə ilk nə də son sünnətlıəri yoxdur. Amma, kim istərsə namazdan öncə iki rükət namaz qıla bilər”. **(*Muhəmməd ibn Saleh əl-Useyminin fətvalar toplusu 14/343)***

## *Cümədən oncə nafilə sünnət:*

Şeyx İbn Baz ***-Allah ona rəhmət etsin-*** belə deyir: “Alimlərin ən səhih rəyinə görə cümədən öncə nafilə sünnəti yoxdur. Lakin, məscidə gələn hər bir müsəlman istədiyi qədər namaz qıla bilər**. (Fətvalar toplusu 12/386, 387)**

## *Cümədən sonra nafilə:*

Əbu Hureyrə ***-Allah ondan razı olsun-*** Allahın Elçisinin ***-Allahın salamı ona və ailəsinə olsun-*** belə dediyini rəvayət edir: “Sizdən biriniz cüməni qıldıqdan sonra dörd rükət namaz qılsın”. Başqa rəvayəytdə isə “Sizlərdən hər hansı birisi cümədən sonra namaz qılmaq istəsə dörd rükət qılsın” ***(Muslim /881).***

Şeyx Abdul-Əziz İbn Baz ***-Allah ona rəhmət etsin-*** belə deyir: “Cümədən sonra isə nafilə sünnət var ən azı iki, ən çoxu isə dörd rükətdir). ***(Fətvalar toplusu 13/387)***

## *Səfərdə ratibə sünnətlər:*

İbn Qeyyim ***-Allah ona rəhmət etsin-*** belə deyir: “Allahın Elçisi ***(Allahın salamı ona və ailəsinə olsun)*** səfərdə olarkən yalnız fəcr namazının sünnətini və vitri qılar digərlərini isə tərk edərdi. Onun ***-Allahın salamı ona və ailəsinə olsun-*** səfərdə olarkən bu ikisindən başqa hansısa sünnəti qıldığı heç bir rəvayətdə varid olmamışdır.” ***(Zədul Məad 1/315)***

Şeyx Abdul-Əziz İbn Baz ***-Allah ona rəhmət etsin-*** belə deyir: “Səfər zamanı vitr və fəcrin sünnətindən başqa digər nafilələrin tərk olunması şəriətə daha uyğundur). ***(Fətvalar toplusu 11/390)***

## *Ratibə sünnətlər harada qılınmalıdır?*

İbn Ömər ***-Allah ondan və atasından razı olsun-*** rəvayət etdiyi hədisdə Allahın Elçisi ***-Allahın salamı ona və ailəsinə olsun-*** belə buyurur: “Evlərinizə də namazlarınızdan bir nəsib ayırın. Oranı namaz qılınmayan qəbirlərə çevirməyin”. ***(Buxari və Muslim)***

Şeyx Muhəmməd ibn Useymin ***-Allah ona rəhmət etsin-*** belə deyir: “İnsanların harda olduqlarından aslı olmayaraq gərək bütün nafilə namazlarını evdə qılsınlar. Hətta Məkkə və Mədinədə olsalar belə nafilələri evdə qılsınlar bu onlar üçün Kəbə və ya Allah Rəsulunun məscidində qıldıqları nafilələrdən daha fəzilətlidir. Çünki, Allahın Elçisinin ***-Allahın salamı ona və ailəsinə olsun-*** nafilələri evlərdə qılınması barədə dediyi hədis Mədinədə olarkən olub. Zamanımızda

insanlardan çoxu nafilələrin qılınmasına Kəbədə olduqları zaman daha üstünlük verirlər nəyinki evlərində. Buda cahilliyin bir növüdür). ***(Riyadus Salihinin şərhi 3/290)***

## *Ratibə sünnətlərinin vaxtı:*

İbn Qudəmə ***-Allah ona rəhmət etsin-*** belə deyir: "Fərz namazlarından öncə olan ratibənin vaxtı, namazın vaxtı daxil olduğu andan namaz qılınana qədər, fərzdən sonra olan sünnətlər isə, namaz qılınıb qurtardıqdan namaz vaxtının çıxmasına qədərdir". ***(Muğni 2/544)***

## *Ratibə sünətlərinin qəzası:*

Ənəs ***-Allah ondan razı olsun-*** rəvayət etdiyi hədisdə Allahın Elçisi ***(Allahın salamı ona və ailəsinə olsun)*** belə buyurur: "Kim bir namazı unudarsa xatırladığı zaman onu qılsın çünki, onun bundan başqa kəffarəsi yoxdur" ***(Buxari /597, Muslim/680)***

Şeyxul İslam İbn Teymiyyə ***-Allah ona rəhmət etsin-*** bu hədis haqda belə deyir: "Allah Rəsulunun bu hədisi fərzlərə, gecə namazına, vitr namazına və nafilə namazlarına da aiddir). **(İbn Teymiyyənin Fətvalar toplusu 23/90)**

## *Namaz qılmağın qadağan olduğu vaxt ratibə sünnətlərin qəzası:*

İbn Qeyyim ***-Allah ona rəhmət etsin-*** belə deyir: "Allahın Elçisi zöhrdən sonra qıla bilmədiyi iki rükəti əsrdən sonra qıldı və daim olaraq əsrdən sonra o iki rükətin üzərində davam etdi. Çünki, O ***-Allahın salamı ona və ailəsinə olsun-*** bir əməl etdikdə onu davamlı edərdi. Ratibə sünnətlərinin qadağan

olunmuş vaxtlarda qılınması həm Ona ***-Allahın salamı ona və ailəsinə olsun-*** həm də ümmətinə aitdir. Amma, əsrdən sonra o iki rükətin üzərində davamiyyətli olmağ isə yalnız ona xas olan əməllərdəndir. ***(Zədul Məad 1/308)***

## *Fəcrin sünətinin qəza olunma vaxtı:*

Əbu Hüreyrə ***-Allah ondan razı olsun-*** Allahın Elçisinin ***-Allahın salamı ona və ailəsinə olsun-*** belə dediyini rəvayət edir: “Kim fəcrin iki rükətini qılmayıbsa günəş çıxdıqdan sonra olsa belə onu qılsın” ***(Tirmizi /423, Şeyx Albani səhihləşdirib)***

Muhəmməd ibn İbrahim babası Qeysdən rəvayət edərək deyir ki, “Bir gün Allahın Elçisi ***-Allahın salamı ona və ailəsinə olsun-*** gəldi iqamə gətirilidi və sübh namazını Onunla ***-Allahın salamı ona və ailəsinə olsun -*** birlikdə qıldım. Sonra Allahın Elçisi ***-Allahın salamı ona və ailəsinə olsun -*** dönüb getdikdə mənim namaz qıldığımı gördü və mənə bizimlə namaz qılmadınmı? deyə soruşdu. Mən də Ona, mən fəcrin sünnətini qılmamışdım deyə cavab verdim. O da ***-Allahın salamı ona və ailəsinə olsun -*** o zaman heçbir şey yoxdur dedi. ***(Tirmizi /422)***

Əbu Daudun rəvayətində isə “Onun bu sözündən sonra Alahın Elçisi ***Allahın salamı ona və ailəsinə olsun-*** heç bir söz söyləmədi. ”***(Əbu Daud /1267, Şeyx Albani səhihləşdirib)***

Şeyx Muhəmməd ibn İbrahim ***-Allah ona rəhmət etsin-*** belə deyir: “Hər hansı bir kəs məscidə girdikdə insanların fəcrin fərzini qıldıqlarını görsə onlara qoşulsun. Namaz bitdikdən sonra qalxıb fəcrin iki rükət sünnətini qılsın. Lakin, o sünətləri günəş bir nizə miqdarında qalxdıqdan sonra qılsa daha gözəl olar. ***(Şeyx Muhəmməd ibn İbrahim Fətvalar toplusu 2/259, 260)***

## *Fəcr namazını camaatla qılmağa gecikən insan ilk öncə sünnəti qılmalıdır yoxsa fərzi?*

Şeyx Muhəmməd ibn Useymin ***-Allah ona rəhmət etsin-*** belə deyir: "Birinci qıldığı fəcrin iki rükət sünnəti olmalıdır çünki, fəcrin sünnəti fərzindən öncədir. Hətta insanların məscitdən çıxdıqlarını görsə belə."***(Muhəmməd ibn Saleh əl-Useyminin fətvalar toplusu 14/298)***

## *Qəza edilən namzlarda tərtib:*

Şeyx Muhəmməd ibn Useymin ***-Allah ona rəhmət etsin-*** belə deyir: "Əgər qılınacaq fərz namazının ön və son sünnətləri varsa və birincisini qıla bilməyibsə namazdan sonra son sünnəti qılsın sonra ilk sünnəti. Məs: «(İmam məscidə girib zöhr namazına başlayıbsa və həmin şəxsdə zöhrün ön sünnətini qılmayıbsa camaatla namazı qıldıqdan sonra zöhrün son iki rükətini qılsın sonra isə ilk dörd sünnətini". ***(Riyadus Salihinin şərhi 3/283)***

## *Qəzaya qalan namazların sayı çox olduqda nə etməli?*

Şeyxul İslam ***-Allah ona rəhmət etsin-*** belə buyurur: "Hər hansısa bir kəsin qəzaya qalan namazları varsa o namazları qıldıqda istərsə sünnətləri ilə birlikdə əda edər istərsə yox. Amma, qəzaya qalan namazların sayı çoxdursa yalnız fərzlərlə kifayətlənməsi daha doğru olar çünki, insanın fərzləri yerinə yetirməyə tələsməsi daha önəmlidir. "Buna görə də Allahın Elçisi ***-Allahın salamı ona və ailəsinə olsun-*** xəndək günü qılmağa imkan tapmadıqları dörd namazı ardıcıllıqla qıldı və heç bir rəvayətdə o dörd namazın arasında hansısa

namaz qıldığı varid olmamışdır. Amma, qəzaya qalan bir-iki namazdırsa o zaman sünnətləriylə birlikdə qılınması daha məqsədə uyğundur. Çünki, Allahın Elçisi ***-Allahın salamı ona və ailəsinə olsun-*** sübh namazını qəza etdiyi zaman sünnətiylə qəza etmişdir. ***(Şərh Umdəh)***

## *Ratibə, Təhiyyətul məscid və dəstamazın sünnətlərinin bir-birinə daxil olması:*

Şeyx Abdur Rəhman as-Sadi ***-Allah ona rəhmət etsin-*** belə deyir: "Bir kəs məscidə əzandan sonra daxil olarsa namazın nafiləsi və təhiyyətul məscid namazına birlikdə niyyət edib iki rükət namaz qılarsa hər iki namazın savabını qazanmış olar, eləcədə dəstəmazın sünnəti". ***(Qavaid və əl-Usul əl-Camia səh/75)***

## *Fəcrin sünnəti duha vaxtı qılınarsa Fəcrin sünnətiylə duha namazının iki rükətinin bir-birin ədaxil olması:*

Şeyx Muhəmməd ibn Useymin ***-Allah ona rəhmət etsin-*** belə deyir: "Hər hansısa bir insan fəcrin sünnətini hansısa səbəbdən günəş cıxana qədər qıla bilməyibsə və artıq duha namazının vaxtı yetişmişsə o şəxs bir niyyətlə iki namazı birləşdirə bilməz. Onlardan heç biri digərini əvəz etmir çünki, onların hər biri özü-özlüyündə müstəqil bir namazdı". ***(Muhəmməd ibn Saleh əl-Useyminin fətvalar toplusu 20/13)***

## *İstixarə namazı ilə ratibənin bir-birinə daxil olması:*

Cabir ibn Abdullah ***-Alah ondan və atasından razı olsun-*** belə deyir: "Allahın Elçisi ***-Allahın salamı ona və ailəsinə olsun-*** bizə hər işimizdə istixarə etməyi Qurandan bir surə öyrədirmiş kimi

öyrədər və belə deyəri: “Sizlərdən hər hansı biriniz bir iş etmək istədikdə iki rükət fərz olmayan namaz qılsın” ***(Buxari /1166)***

Hafiz İbn Həcər ***-Allah ona rəhmət etsin-*** belə deyir: “Əgər insan hər iki namaza birdən niyyət edibsə o namazlar biri-birinin yerində durur. Yox əgər ikisinə də niyyət etməyibsə o zaman o namazlardan hansına niyyət etmişsə hasil olan da odur). ***(Fəthul Bəri 11/189)***

## *Fərz namazına iqamə gətirildikdən sonra ratibə sünnətlərə başlamağın hökmü:*

Əbu Hüreyrə ***-Allah ondan razı lsun-*** Allahın Elçisindən ***(Allahın salamı ona və ailəsinə olsun)*** rəvayət etdiyi hədisdə belə buyurur: “Fərz namazı üçün iqamə gətirildikdə ondan başqa namaz yoxdur”. ***(Səhih Muslim Nəvavinin şərhi ilə 5/222)***.

Nəvavi ***-Allah ona rəhmət etsin-*** belə buyurur: “Bu hədis iqamə gətirildikdən sonra subh, zöhr və s. fərz namazlarının ratibəsi yaxutda ondan başqa namazın qılınmasının icazəli olamadığına açıq aşkar dəlildir” ***(əl-Məcmu 3/378)***

## *İqamə gətirildikdə nafilənin saxlanılması:*

Şeyx Abdul-Əziz İbn Baz ***-Allah ona rəhmət etsin-*** belə deyir: “İqamə gətirildiyi zaman insanlardan bəziləri nafilə, təhiyyətul məscid və yaxud hər hansısa bir sünnət namazını qılırlarsa onlar üçün ən doğrusu və fəzilətlisi o nafilə namazlarını yarımçıq saxlayaraq iqamə gətirilən fərz namazına hazırlaşmalarıdır. Çünki, Allahın Elçisi belə buyurur: “Fərz namazı üçün iqamə gətirildikdə ondan başqa namaz yoxdur” Lakin, iqamə gətirildiyi zaman nafilə namazı qılan insan artıq ikinci rükudan qalxmışsa namazı

bitirməsində bir maniyyə yoxdur çünki, onun qıldığı nafilədən bir rükətdən də az namazı qalmışdır.” ***(Fətvalar toplusu 11/392, 393)***

## ***Az bir vaxt ərzində fərz namazı üçün iqamə gətiriləcəyini bildiyi halda nafilə namazına başlamaq olarmı?***

Şeyxul İslam ***-Allah ona rəhmət etsin-*** belə buyurur: “Belə cavab vermək olar ki, əgər nafiləyə başlasa hansısa fərz namazına yetişə bilməyəcək ona həmin nafiləni tərk etmək müstəhabdir. Onun üçün daha əfzəl olan imamla namazın ilk təkbirinə hazır olmasıdır. Çünki, fərz namazlarında mühafizakar olmaq insan üçün sonradan qılınması mümkün olan sünnətləri qılmasından daha fəzilətlidir. ***(Şərh Umdəh s/609)***

## ***Nafilə sünnətindən sonra əlləri qaldıraraq dua etmək:***

Şeyx Abdul-Əziz İbn Baz ***-Allah ona rəhmət etsin-*** belə deyir: “Ümümi dəlillərə əsaslanaraq demək olar ki, nafilə namazlarından sonra əl-ləri qaldıraraq dua etməyə heç bir maniyyə yoxdur. Lakin, nafilələrdən sonra dua etməyi adət halına gətirərək davamiyyətli olaraqələri qaldırıb dua etmək olmaz. Çünki, nafilədən sonra davamiyyətli olaraq əlləri qaldırıb dua etmək Allahın Elçisindən ***-Allahın salamı ona və ailəsinə olsun-*** varid olmamışdır. Əgər Allah Rəsulu ***-Allahın salamı ona və ailəsinə olsun-*** bunu davamiyyətli olaraq etsəydi o zaman Səhabələr ***-Allah onların hamısından razı lsun-*** bizə onu nəql edərdilər. Çünki, onlar Allah Elçisinin ***-Allahın salamı ona və ailəsinə olsun-*** istər səfərdə istərsədə səfər halında olmadığı zaman dediyi bütün sözləri, etdiyi bütün hərəkətləri bizə nəql etmişlər. ***-Allah onların hamısından razı lsun- (Ərkənul İsləm S/171)***

## *İki namaz cəm edildikdə ratibə sünnətləri nə zaman qılınmalıdır?*

Nəvavi ***-Allah ona rəhmət etsin-*** belə deyir: “Ratibəni hər iki namazı qıldıqdan sonra qılmalı, zöhrün ilk sünnətini isə fərzləri qılmazdan öncə qılmalıdır.” ***(Navavinin şərhi ilə səhih Muslim 9/31)***

## *Moizə olunduğu zaman ratibə sünnətləri nə zamn qılınmalıdır?*

Daimi elmi araşdırma və fətvalar mərkəzi belə qərar verir: “Namazdan sonra moizə olunarsa müsəlman üçün ən gözəli onu dinləməsi və sonrada ratibə sünnəlıərini qılmasıdır. (İstər bu ratibələr zöhrün, məğribin və ya da işanın ratibəi olsun). ***(Daimi elmi araşdırma və fətvalar mərkəzinin fətvası 7/234)***

## *Namazın zikirlərini ratibə sünnətlərindən öncə etmək:*

Şeyx Abdullah ibn Cibrindən ***-Allah onu qorusun-*** Məğrib namazından sonra cənazə namazı qılınarsa, cənazə namazından sonra ratibə sünnətlərinimi qılım yoxsa namazın zikirlərinimi edim? deyə soruşulduqda O, belə cavab verdi: “Cənazənin olub olmadığına baxmayaraq ən yaxşısı həmin insanın zikirləri tamamladıqdan sonra ratibə sünnətini qılmasıdır. Fərz namazlarından sonra gələn zikirlərin üzərində mühafizəkar olmaq lazımdır və heç bir halda onları tərk etmək olmaz. Əgər o zikirləri etməzdən öncə cənazə namazı qılınarsa zikirlərini namazdan sonra tamamlasın və sonra ratibə sünnətlərini qılsln. Ratibə sünnətlərinin zikirdən sonra qılınması ümumi olaraq zöhr,

məğrib və işa namazlarına aiddir çünki bu namazlardakı ratibələr son ratibələrdir”. ***(əl-Qovlul mubin fi mə`rifəti mə yuhummul musallin. S/471)***

## ***Qonağ gəldiyi zaman ratibə sünnətlərinin tərk olunması:***

Şeyx Muhəmməd ibn Useymin ***-Allah ona rəhmət etsin-*** belə deyir: “İnsana bəzən elə hadisələr üz verir ki, həmin insan bəzən baş verən hadisə səbəbi ilə hər hansısa bir fəzilətli əməli tərk etmək məcburiyyətində qalır. Həmin zaman insanın baş verən hadisə ilə məşğul olması onun o fəzilətli əməli etməsindən daha fəzilətlidir. Məs: “Zöhr namazından sonra insanın qonağı gələrsə onun qonağa ikram etməsi zöhrün ratibə sünnətini qılmasından daha fəzilətlidir. ***(Muhəmməd ibn Saleh əl-Useyminin fətvalar toplusu 16/176)***

## ***İş vaxtı ratibə sünnətlərdən başqa nafilələrin qılınması:***

Şeyx Muhəmməd ibn Useymin ***-Allah ona rəhmət etsin-*** belə deyir: “İş vaxtı ratibə sünnətlərdən başqa sünnətlərlə məşğul olmaq icazəli deyildir. Çünki, o, ona verilmiş olan vəzifədən sorumludur. Ratibə-lərə gəldikdə isə onların qılınmasında heç bir maniyə görmürəm çünki, bu namazlar fərzlərə bağlı olan və insanların o namazın qılınmasına adət etdiyi bir namazlardır.” ***(Muhəmməd ibn Saleh əl-Useyminin fətvalar toplusu 15/32)***

## ***Ratibə sünətlərinin tərk edilməsi fasiqlik hesab edilirmi?***

Şeyx Abdul-Əziz İbn Baz ***-Allah ona rəhmət etsin-*** belə deyir: “Bəzi elm əhlinin ratibələrin tərk olunmasını fasiqlik hesab etməsi düz deyil, xətadır. Çünki, bunlar nafilələrdir.

Kim fərz namazlarının üzərində mühafizəkar olar və günahları tərk edərsə o fasiq deyildir əksinə o sağlam ədalətli mömündür. Həmçinin bəzi fiqh alimlərinin ratibələrin qılınması şahidlikdə və ədalətli olmaqda şərtdir deməsi düz deyildir. Lakin ratibələrə və həmçinin başqa xeyirlərə tələsmək və o xeyirli əməlləri görməkdə yarışmaq mömünlərin tam və kamal sifətlərindəndir. ***(Fətvalar toplusu 11/382)***

## ***<u>Fayda:</u>***

İbn Qeyyim ***-Allah ona rəhmət etsin-*** belə deyir: “Allahın Elçisinin gecə və gündüz daimi olaraq üzərində mühafizəkar olduğu qırx vaxt namaz vardır: “On yeddi rükət fərz, on yaxud on iki rükət ratibə sünnətləri, on bir yaxud on üç rükət gecə namazı. Bunların hamısı birlikdə qırx rükət namazdırki Allahın Elçisi onların üzərində davamiyyətli olardı. Hər bir müsəlman da ölənə qədər bu namazların üzərində mühafizəkar olmalıdır. Hansı qul ki, gecə və gündüz ərzində qırx dəfə qapını döyərək ehtiyaclarını istəyərsə ona istədiyi verilər və döydüyü qapılar açılar. Allah köməyimiz olsun.! ***(Zədul Məad 1/327)***

Ratibə sünnətlərinin əhkamı kitabından müxtəsər olaraq bitdi.

***Allahın salat və salamı olsun Muhəmmədə,***
***onun ailəsinə, bütün səhabələrinə və qiyamətədək***
***onun ardınca gözəl şəkildə gedənlərə! Amin!***